# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:____________________**
**“Biznes və logistika” kafedrasının**
**müdiri: professor. Əliyev M.Ə.**
**“ 05 ” sentyabr 2025 -cu il**

**“BEYNƏLXALQ BİZNES” fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00168** |
| **Fənnin növü:** | **Məcburi** |
| **Tədris ili:** | **2025/2026** |
| **Tədris semestri:** | **yaz** |
| **Fakültə:** | **“Biznes və menecment”** |
| **Qrup:** | **21-20.** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ - 30/30)** |
| **Kredit sayı:** | **4 (dörd)** |
| **Kafedra:** | **“Biznes və loqistika”** |

## II. Müəllim haqqında məlumat



| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Niyazi Həsənov (dosent)** |
| **E-mail ünvanı:** | niyazisan@gmail.com |
| **İş telefonu:** | **012 440 33 67** |
| **Tələbələr üçün qəbul vaxtları:** | **cümə günləri, saat 11:00-13:00** |

Bu sillabus University of California, Berkeley (UCB) Amerika (İnternational business) fənninin məzmununa uyğun olaraq “Biznesin idarə edilmsi” kafedrasının dosenti Niyazi Həsənov tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn Beynəlxalq biznesin əsaslarını, qlobal şəraitdə biznesin təkamülü proseslərini, biznesin təyinatını, Beynəlxalq biznes xidmətlərinin xarakteristikasını, müvafiq sahələr üzrə biznesin təminatının əsaslarını, onların tətbiqi xüsusiyyətlərini və vasitələrini, beynalxalq biznesin təşkili məsələlərini, beynəlxalq səviyyə təqdim oluna bilən resurslarının strukturunu və burada biznes prosesinin əsas cəhətlərini, beynəlxalq biznesin informasiya təhlükəsizliyinin təminatı beynəlxalq biznesin tətbiqi aspektlərini, digər qlobal beynəlxalq biznes şəbəkələrində iş rejimlərini, ümumilikdə biznesin mühafizəsinin üsul və vasitələrini özündə ehtiva edir.

Eyni zamanda beynəlxalq biznesin xarakteristikası, kommersiya, bank və nümayəndəliklər, trans-milli karparasiyaların nümayəndəliklərinin rolunda Web saytın funksiyaları , internetdə reklam və Web marketinqin təşkili, müasir internet resursları. informasiyanın xarakterindən və ötürmə üsulundan asılı olaraq iqtisadi məsələlərin həllində beynəlxalq biznesin imkanlarının reallaşdırılması beynəlxalq biznes fənninin tədrisinin başlıca istiqamətlərindəndir.

## IV. Fənnin məqsədi və vəzifələri

“Beynəlxalq biznes” kursunun əsas müddəaları ilə tanış etməkdən, müxtəlif xarakterli məsələlərin həllində beynəlxalq biznesin səmərəli tətbiqi baxımından mövcud vəziyyəti səciyyələndirməkdən, beynəlxalq biznesin müasir əməliyyat sistemləri mühitində qlobal səviyyədə beynəlxalq biznes sistemində praktiki iş vərdişlərinin elmi-nəzəri cəhətdən tələbələrə öyrədilməsindən ibarətdir.

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- tələbələrə beynəlxalq biznesin, müasir tədrisdə və gələcək fəaliyyətlərində itifadə etməyi öyrətmək;
- fənninin mənimsənilməsi tələbədən bakalavr səviyyəsində beynəlxalq biznes sahəsində biliklərin təmin edilməsi;
- öz növbəsində bu fənn beynəlxalq biznesin nailiyyətlərindən istifadə edərək biliklərin, o cümlədən, iqtisadi biliklərin əldə edilməsində baza rolunu nəzərdə tutmalıdır;
- beynəlxalq aləmdə subyektlərin əsas xarakteristikalarını və beynəlxalq biznes konteksində qiymətləndirilmə metod və mexanizmiləri öyrətmək;
- beynəlxalq biznesdə daxili və xarici mühit amillərinin qarşılıqlı əlaqədə olmasını biznesin ümumi inkişafına təsirinin olduğunu tələbələrə məntiqli nümunələrlə izah etmək;
- müasir dünyada bazar iqtisadiyyatı qanunlarının fəaliyyət mexanizmlərini və müxtəlif sahələrində beynəlxalq biznesin təzahür formalarını, TMK-ların idarəetmə mexanizmilərini tələbələrə öyrətmək.

## V. Fənnin tədris metodologiyası

Bu fənni öyrəndikdən sonra tələbə, beynəlxalq biznesin hüquqi, siyasi və iqtisadi mühitini, beynəlxalq biznesin insani və mədəni mühitini, dünya maliyyə mühitini, regional iqtisadi inteqrasiyanı, beynəlxalq ticarəti, müştərək müəssisələrin yaradılmasını, kapitalın beynəlxalq hərəkətini, beynəlxalq injirinq xidmətini, təhcizat mənbəylərinin qlobal yerləşdirilməsi, istehsalın təşkili və ixracatın strategiyasını, strateji alyansları, neft strategiyası və biznesin inkişafında onun rolunu, beynəlxalq “İpək Yolu” nun bərpası beynəlxalq biznesin inkişafına təsirini, beynəlxalq biznesdə marketinq, beynəlxalq biznesdə mühasibat uçotu və nəzarətin təşkili, valyuta risklərini idarə edilməsi, beynəlxalq əmək bölgüsü məsələlərini qiymətləndirmək imkanı əldə edəcəkdir.

## VI. Öyrənmənin nəticələri:

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- Beynəlxalq biznesin nəzəri əsaslarını;
- Beynəlxalq biznesin müasir təşkilati-hüquqi formalarına olan tələbləri;
- Beynəlxalq biznesin xarakterik xüsusiyyətlərini;
- TMK-larda daxili və xarici mühit amilləri və onların idarə olunması;
- Beynəlxalq biznesdə maliyyə vəsaitlərinin idarə edilməsi;
- Beynəlxalq biznesdə qiymətləndirmə və birjaların fəaliyyəti və s.

**Bacarmalıdırlar**:

- Beynəlxalq biznesdə müxtəlif yanaşmaları tətbiq etmək bacarığı;
- TMK-larda daxili və xarici mühit amillərini qiymətləndirməyi;
- Beynəlxalq biznesdə müştərək biznes əlaqələrinin qurulmasını;
- Beynəlxalq biznesdə valyuta imkanlarından istifadə etmək bacarığına yiyələnəcəklər;
- Beynəlxalq biznesdə strategiyanın meyarlarına görə müəyyənləşdirilməsini;
- Beynəlxalq biznesdə uçotun aparılması və risklərin idarə edilməsini və s. bacarmalıdırlar;

## VII. Prerekvizitlər

Yoxdur.

## VIII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. Kursun premeti və məzmunu
2. Beynəlxalq biznes mühiti
3. Dünya maliyyə bazarı
4. Beynəlxalq iqtisadi inteqrasiya
5. Beynəlxalq ticarət
6. Müştərək sahibkarlıq beynəlxalq biznesin tərkib hissəsi kimi
7. Kapitalın beynəlxalq hərəkətiı
8. Beynəlxalq injirinq xidmətləri
9. Böyük İpək Yolunun bərpası beynəlxalq biznesin inkişafı üçün əsasdır
10. Beynəlxalq marketinq – müasir biznesin fəlsəfəsidir
11. Beynəlxalq icarə əməliyyatları
12. Beynəlxalq francayzinq, faktorinq
13. Beynəlxalq biznesdə autsorsinq
14. Loqistika şirkətlərin rəqabətqabiliyyətinin artırılması amili kimi
15. Beynəlxalq biznesin inkişafında dövlətin tərəfdaşlığı

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri

1. Həsənov N.Ə. "Beynəlxalq biznes" Dərslik I-ci Hissə Bakı-2022
2. Həsənov N.Ə. «Biznesin strateji idarə edilməsi» Dərslik. Bakı-2019

3. Həsənov N.Ə. “Beynəlxalq biznes” dərs vəsaiti Bakı-2011
4. Piraqov.K.M.”Biznesin təşkilatı əsasları” Bakı, 2012.
5. Bayramov Ə.İ. “Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika” Azər-nəşr,1997.
6. Əliyev A.Ə., Qasımov Ə.S., Qaslmov N.Ə. “İpək yolu ” bəşəriyyətin tərəqqi yoludur. Bakı,1999
7. Niftullayev. Vaqif. “Sahibkarlığın əsasları. Bakı, Zaman nəşriyyatı,2002.
8. Дэниел Джон Д., Радеба Ли Х. Международный бизнес:внещная среда и деловые операции.М.,Дело.1998.
9. Misir Əmirov “Böyük ipək yolu” dərs vəsaiti. Bakı. 2011.
9. Qafarov Ş.s. İctimai əmək bölgüsü və onun müasir sosial-iqtisadi problemləri. Bakı, 1999
10. Vavilova Y.V., Borodulina L.P. “Beynəlxalq ticarət” Bakı. 2009.
11. Şəkərəliyev A.Ş. Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlər. Bakı, 1999
12. Vəliyev.A.C. “Beynəlxalq marketinq” Dərslik Bakı. 2017.
13. Ричмен Д. и др. Современный бизнес – М.; 2005

Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

**XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü**

| **Həftə** | **Mövzuların adı** | **Mövzunun əsas məzmunu** | **Ədəbiyyat** |
|---|---|---|---|
| **1** | Kursun premeti və məzmunu | Beynəlxalq biznesin fəaliyyətinin əsasları. Beynəlxalq biznesdə inteqrasiya. İnteqrasiyanın elmi-nəzəri əsasları. Nəticə və xərclər üçün əsas elmi anlayışlar. Doy-Cons indeksinin beynəlxalq biznesə təsiri. Beynəlxalq biznesdə məqsədlərin müəyyən edilməsinin elmi-nəzəri əsasları. | **“Beynəlxalq biznes” Dərslik. Bakı-2022** Fəsil-1 (1.1, 1.2, 1.3) |
| **2** | Beynəlxalq biznes mühiti | Biznesdə təşkilatı hüquqi formaların seçilməsi. Beynəlxalq biznesdə siyasi və iqtisadi mühitin təhlili. Bazar iqtisadiyyatı şəraitində qarşılıqlı iqtisadi münasibətlərin qurulması. Beynəlxalq biznesdə xarici və daxili mühit amillərinin təhlili. Azad iqtisadi zonaların yaradılması və beynəlxalq biznesə təsirinin elmi-nəzəri əsaslarının mahiyyəti. Qlabal şəraitdə biznesin siyasi və iqtisadi mühitinin təhlil edilməsi. Milli iqtisadiyyatın inkişafında “eynəlxalq biznesin” rolu və yeri | **“Beynəlxalq biznes” Dərslik Bakı-2022**. Fəsil-2 (2.1, 2.2, 2.3, 2.4.) **“Beynəlxalq biznes”** Dərs vəsaiti **Bakı-2011** Fəsi-4 (4.1.) |
| **3** | Dünya maliyyə bazarı | Biznesə dünya maliyyə mühitinin mahiyyəti və əhəmiyyəti, Şirkətlərdə dünya maliyyə vəsaitlərindən bəhrələnmək. İşgüzar fəaliyyətdə dünya maliyə mühütünün rolu. Bu məsələdə biznesmenlərin əsas keyfiyyətləri. Dünya maliyyə sisteminin fəaliyyət mexanizmiləri . Beynəlxalq maliyyə mühiti.Beynəlxalq biznesdə maliyyənin rolu və yeri. Beynəlxalq maliyyə əməliyyatlarının aparılmasında informasiya texnalogiyalarının rolu və yeri. Beynəlxalq | **“Beynəlxalq biznes” Dərslik Bakı.2022**. Fəsil-3 ( 3.1. 3.2, 3.3, 3.4, 3.5) “Beynəlxalq biznes” Dərs vəsaiti Fəsil- (18.2, 18.3,18.4, 18.5). |

| | | | |
|---|---|---|---|
| | | biznesdə investisiyaların cəlb edilməsi. | |
| **4** | Beynəlxalq iqtisadi inteqrasiya | Reqional iqtisadi ineqrasiyanın elmi nəzəri əsasları. Beynəlxalq biznesdə inteqrasiyanın dərinləşdirilməsi məsələləri. Beynəlxalq kommersiyanın müasir səviyyəsi. Əmək ehtiyyatları bazarında kapitalın hərəkəti. Valyut kredit siyasətinin reqional iqtisadi ineqrasiyası. | **"Beynəlxalq biznes".Bakı-2022**. Fəsil-4 (4.1, 4.2). "Beynəlxalq biznes" Dərs vəsaiti Fəsil 4 (4.1, 4.2, 4.3). |
| **5** | Beynəlxalq ticarət | Beynəlxalq ticarət nəzəriyyəsi. Dünya təssərüfat sistemində beynəlxalq ticarət. Dünya bazarının təkamülü. Beynəlxalq mal nameklaturası. Dünya qiymətlərinə təsir edə amillər. Beynəlxalq mal birjaları. Hərrac ticarəti. Elektron ticarətin nəzəri əsasları | **"Beynəlxlq biznes" Dərslik Bakı 2022 Fəsil-5 (5.1. 5.2. 5.3. 5.4.) "Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika"**. **Bakı.2009**. Fəsil 1-2-3-4-5 (1.2, 2.3, 3.3, 4.3, 5.2) |
| **6** | Müştərək sahibkarlıq beynəlxalq biznesin tərkib hissəsi kimi | Müştərək sahibkarlıq beynəlxalq biznesin tərkib hissəsi kimi olmaqla Beynəlxalq nəzəri əsasları və sahibkarlıq sistemində beynəlxalq əhəmiyyəti Dünya bazarının təkamülü kimi və beynəlxalq sahibkarlıq nameklaturası. Dünya biznesinə təsir edə amillər. Beynəlxalq sahibkarlıqda birjaların rolu.Elektron ticarətin beynəlxalq sahibkarlığa təsiri və nəzəri əsasları. Müştərək müəssələrin yaradılması şərtləri məqsədləri və qaydaları. Beynəlxalq biznesdə birgə müəssisələrin yaradılmasının əsas istiqamətləri və prinsipləri. Beynəlxalq iqtisadi əməkdaşlıq zəmnində milli iqtisadiyyatda müştərək müəssisələrin yeri və rolu. | **"Beynəlxalq biznes" Dərslik Bakı 2022. (6.1. 6.2. 6.3. 6.4.) "Beynəlxalq ticarət".Bakı-2009.** Fəsil-1-2-3-4-5. |
| **7** | Kapitalın beynəlxalq hərəkətii | Beynəlxalq kapitalın hərəkətinin forma və əsasları. Birbaşa investisiyaların tətbiqinin əhəmiyyəti və rolu. Dünya miqyasında birbaşa investisiyaların müasir səviyyəsi. Ölkəyə cəlb edilən investisiyaların Milli iqtisadiyyatın inkişafında rolu və yeri. Beynəlxalq biznesdə kapitalın hərəkətinin əhəmiyyəti. | **"Beynəlxalq biznes" Dərslik Bakı 2022. (7.1 7.2. 7.3. 7.4.) "Beynəlxalq biznes" dərs vəsaiti. Bakı. 2011.** Fəsil-7 (7.1, 7.2, 7.3) |

| | | | |
|---|---|---|---|
| **8** | Beynəlxalq injirinq xidmətləri | Beynəlxalq injirinq xidmətlərinin forma və əsasları. Birbaşa beynəlxalq injirinq xidmətləri tətbiqinin əhəmiyyəti və rolu. Dünya miqyasında birbaşa beynəlxalq injirinq xidmətlərinin müasir səviyyəsi. Ölkəyə cəlb edilən beynəlxalq injirinq xidmətləri və Milli iqtisadiyyatın inkişafında rolu və yeri. Beynəlxalq injirinq xidmətləri Beynəlxalq biznesin hərəkətində mühüm əhəmiyyəti. Biznesd' texniki təminat və informasiya texnalogiyalarının təməli kimi. İnjirinqdə informasiya texnologiyalarının tətbiqi. Lizinqdə informasiya texnalogiyalarının inkişafa təsiri. Qloballaşma və konvergensiya. | **"Beynəlxalq biznes" Dərslik Bakı 2022. (8.1. 8.2. 8.3. 8.4.) "Beynəlxalq biznes". Dərs vəsaiti. Bakı. 2011.** Fəsil-2 (2.1, 2.2) Fəsil-4 (4.3) |
| **9** | Böyük İpək Yolunun bərpası beynəlxalq biznesin inkişafı üçün əsasdır | Böyük ipək yolunun bərpası Heydər Əliyev zəkasının təntənəsi kimi. Bakı bəyamnaməsinin qəbul edilməsi. Böyük ipək yolundan TRASEKA. Ölkənin iqtisadi inkişafında İpəkYolunun təhlili. | **"Biznesin təşkilatı əsasları". Bakı. 2012**. Fəsil-12 (12.1, 12.2, 12.3, 12.4). |
| **10** | Beynəlxalq marketinq – müasir biznesin fəlsəfəsidir | Beynəlxalq marketinqin müasir biznesin fəlsəfəsi olmaqla ixracatda məhsulun imicini müəyyən etmək, Biznesin inkişafı zamanı marketinq əsasında strategiyanın seçilməsinin qlabal şəraitə uyğun olması. Biznesin inkişaf xəritəsi. Marketinq artırılması və strateji xəritənin əhəmiyyəti. İnkişafın təmin edilməsində beynəlxalq marketinqin rolu və yeri. İqtisadi inkişafa beynəlxalq marketinqin biznesin strategiyalarına təsiri. | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019**.Fəsil-6 (6.2, 63.3, 6.4, 6.5) Fəsil-11 (11.1, 11.2, 11.3, 11.4) Fəsi-7 (7.4.) |
| **11** | Beynəlxalq icarə əməliyyatları | Beynəlxalq icarə əməliyyatlarının strateji əhəmiyyəti və biznesin inkişaf diaqnostikasının təşkili. Beynəlxalq icarə əməliyyatları və şirkətlərin biznes proseslərinin modelləri və struktur əsasında tətbiqi. Şirkətin biznes prosesləri və icarə əməliyyatlarının diaqnostikası və ekspres metodların tətbiqi. Beynəlxalq icarə əməliyyatlarının biznes proseslərinin optimal olması üzrə metodiki məsələlərin həll edilməsi. | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-8 (8.1, 8.2, 8.3, 8.4) |
| **12** | Beynəlxalq francayzinq, faktorinq | Beynəlxalq francayzinq, faktorinqin biznesin inkişaf strategiyasının tətbiqində elmi təməl mərhələləri. İqtisadi inkişafında beynəlxalq francayzinq, faktorinqin əsasında alternativ strategiyalara müasir yanaşmalar. Beynəlxalq francayzinq, faktorinq srtategiyasının inkişafa təsiri. | **"Biznesin strateji idarə edilməsi".Bakı. 2019.** Fəsil-3 (3.3, 3.4) Fəsil-9 (9.4, 9.5) |
| **13** | Beynəlxalq biznesdə autsorsinq | Beynəlxalq biznesdə autsorsinq tətbiqi və ya bərpası iqtisadi inkişafa səmərəli təsiri. | **"Böyuk ipək yolu".Bakı.** |

| | | | |
|---|---|---|---|
| | | Beynəlxalq biznesdə autsorsinq qərarının qəbul edilməsi və firma və ya şirkətlərin ümumilikdə ölkənin iqtisadi inkişafına təsiri və təhlili. | **2011.** Fəsil-3 (3.1, 3.2, 3.3) |
| **14** | Loqistika şirkətlərin rəqabətqabiliyyətinin artırılması amili kimi | Loqistika şirkətlərin rəqabətqabiliyyətinin artırılması müasir dövrdə ticarət və onun xüsusiyyətlərinə təsiri və təhlili. Biznesin inkişafında loqistika şirkətlərinin rəqabətqabiliyyətinin artırılması siyasətinin əsas amilləri. Beynəlxalq laqistik əməliyyatlarının əhəmiyyəti və əsas prinsipləri, yaranma səbəbləri və onun inkişafı, konsepsiyası və biznesin beynəlmiləlləşməsi, funksiyaları və formaları və formalaşması xüsusiyyətləri. Loqistika şirkətlərin rəqabətqabiliyyətinin artırılması istiqamətində tədqiqatlarının informasiya təminatı, daxili və xarici mühit və müvafiq siyasətin tətbiqi. Ümumi və ilkin tədqiqatlar. | **"Beynəlxalq marketinq". Bakı. 2017** Fəsil-2(2.1, 2,2.3, 2.4, 2.5, 2.6) Fəsil-3 (3.2, 3.3, 3.4) **"Beynəlxalq ticarət".Bakı. 2009.** Fəsil-1 (1.1) |
| **15** | Beynəlxalq biznesin inkişafında dövlətin tərəfdaşlığı | Beynəlxalq biznesin inkişafında dövlətin tərəfdaşlığı sisteminin qurulmas. Beynəlxalq biznesdə özəl və dövlət tərəfdaşlığının aparılması qaydaları və prinsipləri. Beynəlxalq biznesin inkişafında dövlətin tərəfdaşlığı sisteminin tətbiq edilməsinin mahiyyəti və əhəmiyyəti. Milli sistemin beynəlxalq biznesin inkişafında dövlətin tərəfdaşlığı və beynəlxalq sisteminə uyğunlaşdırılması. | **"Beynəlxalq biznes".Bakı. 2011**. Fəsil 5 (5.1) |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

## XIII. Fənn üzrə kurs işi

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

## XIV. Sərbəst işlər: tələblər və qiymətləndirmə

Semestr ərzində tələbələrə 1 (10 ballıq), 2 (hər biri 5 ballıq) yaxud 10 (hər biri 1 ballıq) sərbəst iş tapşırığı verilir. Sərbəst işlər tələbələr tərəfindən təkbaşına və ya qrup işi formasında işlənə bilər. Sərbəst işçap və ya elektron formada, yaxud əlyazma şəklində təhvil verilir.

Sərbəst işlərin qiymətləndirilməsi onların sayından asılı olaraq həyata keçirilir:

- 1 ballıq sərbəst işlər hər bir tələbə tərəfindən fərdi qaydada yerinə yetirilir. Bu işlər bir qayda olaraq fənndə tədris olunan mövzulara aid olur. Tələbələr müvafiq mövzunu öyrənməli və həmin mövzu ilə bağlı özlərinin fikirlərini sərbəst şəkildə (esse kimi) yazmalıdırlar. Belə sərbəst işlərin hər biri yazılı formada - word faylı formatında (şrift 12), həcmi ən azı 1,5-2 səhifə həcmindəolmaqla (amma 4 səhifədən çox olmamaqla)- tələbənin fərdi kabinetinə yüklənir. Məzmunundan asılı olaraq belə işlər «0» və ya «1» balla qiymətləndirilir. İş «0» balla qiymətləndirildikdə müəllim bunun səbəbini izah etməlidir;
- 5 və 10 ballıq sərbəst işlər tələbələrə fərdi və ya qrup işi kimi tapşırıla bilər. Belə işlərdə konkret mövzular üzrə araşdırmanın aparılması yaxud referatın işlənilməsi tələb oluna bilər. Belə araşdırmalar zamanı tələbələr fənnin mövzularından öyrəndikləri bilikləri və əldə etdikləri bacarıqları həmin tədqiqatlarda istifadə (tətbiq) etməyə çalışmalıdırlar. Araşdırmalar zamanı tələbələr ortaya çıxan çətinlikləri müəllimlə müzakirə edə və ondan məsləhət ala bilərlər. Belə işlər yazılı şəkildə word faylı formatında yaxud Power Point formatında təqdimat formasında, qrupun bütün üzvlərinin adı qeyd edilməklə, qrupun hər bir üzvünün fərdi kabinetinə yüklənir. Bu cür işlər, müvafiq olaraq, 0-dan 5-dək yaxud 0-dan 10-dək balla qiymətləndirilir. Sərbəst işin (araşdırmanın) hazırlanmasında qrup üzvlərinin fərdi töhfələri fərqli olarsa, qiymətləndirmədə bu nəzərə alınır. Aşağı balla qiymətləndirmələr zamanı müəllim bunun səbəbini tələbənin fərdi kabinetində izah edir.

Sərbəst işlərin yerinə yetirilməsi Universitetdə müəyyən edilmiş qaydalar çərçivəsində fənni tədris edən müəllimlə tələbələr arasında əldə olunan razılığa uyğun olaraq həyata keçirilir. Sərbəst işlərin qiymətləndirilməsində şəffaflığı təmin etmək müəllimin vəzifə borcudur.

## XV. Dərsə davamiyyət

Tələbə bütün mühazirə və seminar dərslərində fəal iştirak etməlidir. Tələbənin dərsə davamiyyəti 10 ballıq sistem üzrə qiymətləndirilir. Tələbənin iştirak etmədiyi dərslərin sayı onun davamiyyət qiymətinə (balına) təsir edir: buraxılmış hər 3 dərs (6 saat) 1 balın itirilməsi ilə nəticələnir. Tələbə fənn üzrə ümumi tədris yükünün 25%-dən çox (14 saatdan çox) dərs buraxarsa, o, yekun imtahana buraxılmır. Bu halda tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır

## XVI. Aralıq qiymətləndirmə

Fənnin tədrisi prosesində tələbənin dərslərdəki cari fəallığı (mühazirədəki fəallıq, seminar-məşğələdə cavabları, qrup işlərində iştirakı və s.) 10 ballıq sistemlə 0-10 bal arasında qiymətləndirilir.

Fənnin tədrisi prosesində tələbənin əldə etdiyi bilik və bacarıqları 2 dəfə kollokvium keçirilməklə qiymətləndirilir. Kollokviumlar, müvafiq olaraq, tədrisin birinci və ikinci ayı başa çatdıqdan sonra yalnız həmin dövrdə keçirilən mövzuları əhatə edən suallar əsasında təşkil olunur. Kollokviumlar test üsulu formasında keçirilir.

Hər kollokviumda tələbənin bilikləri 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal) qiymətləndirilir. Tələbə kollokviumda iştirak etmədikdə jurnalda "0" (sıfır) bal qeyd olunur.

## XVII. Yekun imtahan

Fənnin tədrisinin sonunda bir dəfə yekun imtahan təşkil olunur.Tələbənin imtahandakı cavabı 0-50 bal aralığında (maksimum 50 bal)qiymətləndirilə bilər. İmtahan yazılı formada yaxud test qaydasında təşkil olunur. Fənn üzrə imtahan sualları yaxud testlər mühazirə mətnləri və məşğələ dərslərinin məzmununa uyğun olaraq tərtib edilir.

Yekun imtahanda tələbə minimum 17 bal toplamazsa, onda imtahana qədər yığılan ballar toplanmır, tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə bağlı tələbənin hər-hansı şikayəti olarsa, tələbə Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

## XVII. Fənn üzrə yekun qiymətləndirmə

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirirlir. Balların maksimum miqdarı -100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır.

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| İmtahan (final) | 50 | 50 % |
| Seminar (məşğələ) və ya laborator dərslərin nəticələrinə görə | 30 | 30 % |
| Tələbələrin sərbəst işinə görə | 10 | 10% |
| Davamiyyət | 10 | 10 % |
| **Cəmi:** | **100** | **100 %** |

Fənn üzrə semestr ərzində (imtahanaqədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

51 baldan aşağı olduqda - "qeyri-kafi" – **F**
51-60 bal - "qənaətbəxş" – **E**
61-70 bal - "kafi" – **D**
71-80 bal - "yaxşı" – **C**
81-90 bal - "çox yaxşı" – **B**
91-100 bal - "əla" – **A**

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.

**Tərtib etdi:** **dos. Niyazi Həsənov**